# YAZIYA POZU YOXDUR



Əsl alim dediyin kəs gecə-gündüz, hər yaşında oxuyub-öyrənir, ya da oturub gözləyir ki, ondan məsləhət almağa gəlsinlər. Özünü elə aparar ki, guya bildiyi çox az şey var. Adətən yoxsul olar, tamahsızdı, onun qızıl-gümüşü elə biliyidi, bir də ədalət...
Əsl alimə hədə-qorxu gəlməyin xeyri yoxdur. Ev-eşiyi kasıbyanadı, yemək-içməyi yağ-bal deyil. Elm yolunda dosta-düşmənə, doğmaya-yada təfavüt qoymaz. Alim öz əsrdaşları ilə bir dövrdə yaşasa da, özünü əvvəlkilərlə müqayisə eləyər. Əgər hökmdar onun tərəfini saxlamasa, qaragüruh onun üstünə ayaq alsa, alimi ölümlə təhdid etsə belə, — əsl alimin iradəsini qırmaq mümkün deyil. Alim dediyin həyatının ən ağır çağında belə xalqın taleyini yaddan çıxarmaz...

DAO-sindən...

# ÇOX DANIŞAN QARADİNMƏZ - MO YAN

Mo Yan 1955-ci ilin martında Çinin Şandun əyalətində kəndli ailəsində anadan olub. O illər Çində ümumi vəziyyət bambaşqaydı. Ata-anası ona möhkəm tapşırardı ki, – «çalış, adam arasında az danış. Çünki, ağzını açıb ağla gələni danışmağa başlasan, başını bəlaya salarsan». Mo Yan da o gündən ata-anasının sözündən çıxmadı. Yazmağa başlayandasa fikirləşdi ki, hər bir yazıçının öz ləqəbi var. Ata-anasının məsləhəti yadına düşdü və özünə Mo Yan (Çin dilində bu – «az danış» deməkdi) ləqəbini götürdü. Bu da Çin əxlaqına tamam uyğun gəlir. Qədim Şərq misalı var ki: «heç bir söz demədən də, çox şey danışmaq olar».

Mo Yan öz uşaqlığını belə xatırlayır: *«...O illəri fikirləşəndə əvvəl-əvvəldən acından qarnımın quruldamağı və bir də qonşuda acından ölən adamın üstündə qopan vay-şivən yadıma düşür. Sonra məktəbi atdım, dolanışıq xətrinə iş dalınca getdim. Başqa çarəmmi vardı?! 1976-cı ildə ordu sıralarına yazıldım. O vaxt ordunun özünə düşmək belə asan deyildi. Bu minvalla ordu sıralarında 20 il sərasər çalışdım. 1997-də istefaya çıxdım. Özümü həmişə orduya borclu sayıram. Çünki, ədəbiyyatnan məşğul olmağa mənə imkan qazandırıb. Amma heç vaxt ordu həyatından yazmamışam. Bilmək olmaz, bəlkə gələcəkdə yazası oldum. Sözün qısası, – ordu mənim həmişəlik evim-eşiyimdi»*

Ordu həqiqətən də Mo Yan üçün ədəbiyyatla məşğul olmağa, eləcə institutu, sonra Lu Sin adına Ədəbiyyat İnstitutunun Aspiranturasını bitirməyə və ən nəhayət, adlı-sanlı yazıçı kimi yetişməyə şərait yaratmış oldu.

Ədəbiyyatşünaslar Mo Yanı hardasa Çinin ən yaxşı yazıçısı kimi tanımaq istəmir. Belə hesab edirlər ki, onun məharəti – ictimai fikirdə istər insan kimi, istərsə bir yazıçı kimi mərkəzlə ucqar arasında əlverişli mövqe tutmağındadır...

Əslində Mo Yan öz yaradıcılığına «əslini-kökünü axtaran» ədəbi cərəyanın bir nümayəndəsi, daha dəqiq desək, Çin kəndini təsvir edən qələm sahibi kimi başlayıb. Ona məşhurluğu «İçərisi şəffaf, bayırı qırmızı turp» adında povesti gətirib. Bu sıradan yazdığı nəsr əsərləri «Qırmızı qaolan. Ailəvi saqa» silsiləsində toplanıb. Bu əsər əsasında çəkilən eyni adlı film dünya kinosunun şedevrlərindən sayılır...

Mo Yan çox müdrik yazıçıdı. Belə götürəndə çoxları onu dövlət adamı, hökumətə yaxın yazıçı sayır. O neçə illərdir ki, Çin Kommunist Partiyasının üzvüdür. Orduda keçmiş siyasi rəhbər olub. İndi də Çin Yazıçılar İttifaqında müavindir. Çin Mədəniyyət Nazirliyi nəzdindəki İncəsənət Akademiyasının direktoru vəzifəsini daşıyır. Bütün bunlarla yanaşı, Mo Yan sözün əsl

mənasında, vicdanlı bir ziyalı, hardasa liberal ruhlu tanınmış ictimai xadimdir. Çinin həyatında baş verən elə sarsıntı və təlatümlər yoxdur ki, Mo Yanın yaradıcılığında öz əksini tapmasın. « İri döş, yekə dal» romanında 50-ci illər Çinində baş verən aclıq və səfalətdən bəhs edilir. Ən yaxşı romanlarından biri sayılan «Qurbağa» isə Çin hökumətinin «planlı doğuş» siyasətinə kinayə ilə dolub-daşır.

Mo Yan heç vaxt sözün əsl mənasında, «sinəsini qabağa verib özünü gözə soxan» qələm sahiblərindən olmayıb. O hansı yerdə öz sözünü deməyi və nə vaxt dinib-danışmamağı əla bilən şəxsiyyətdir.

Mo Yana arada «Çin Markesi», yaxud bu ölkənin «Folkneri» deyiblər. Halbuki, yaradıcılığa başlayandan üzü bəri Mo Yan hər cürə ədəbiyyatın təsirindən qaçıb. Özü bu haqda deyir: *«Mən 1981-ci ildə əlimə qələm alıb yazmağa başlayanda nə Folkneri, nədə Markesi oxumamışdım. 84-cü ildəsə hər ikisini oxudum. Ondan üç il sonra Folknerə və Markesə Çin yazıçılarının münasibətini yazılı şəkildə qələmə aldım. İkisi də dahidir. Onları oxuyandan sonra bilmişəm ki, demə belə də kitab yazmaq olarmış. Məncə, hər ikisi püskürən vulkandır. Çox yaxına getsən yandıracaq və əriyəcəksən. Çalışmışam ki, bacardıqca onların təsiri altına düşməyim, elə özüm olum».*

Mo Yanın yaradıcılığına müasir dünya ədəbiyyatının ən tanınmış qələm sahibləri yüksək qiymət verir – Kendzaburo Oe, Con Apdayk, Mo Yanın Nobel mükafatındakı rəqibi Xaruki Murakami və eləcə başqaları...

Axırıncı əsərlərindən biri – «Həyat və





ölüm yorğunu» – ədəbiyyatşünasların fikrincə, bəlkə də Mo Yanın klassik ədəbiyyatla xalq yaradıcılığına eyni vaxtda təzimidir. Onun «Çaxırıstan» **(biz əsərin adını belə tərcümə etməyi lazım bildik)** adlı sürrealist romanı isə «qarınquluîuq» və ümumiyyətlə «gödən» mədəniyyətinə Lu Sindən sonra bəslənən kinayənin davamıdır.

Mo Yana 2012-ci ildə gözlənilmədən, onun yaradıcılığındakı «Çin xalq nağıllarını tarixlə və müasirliklə qovuşduran «qarabasma» realizminə görə» Nobel mükafatı verildi.

Çin vətəndaşı olub öz vətənində yaşayan (mühacir çinlilər öz yerində) ilk Nobel mükafatçısı Mo Yan hazırda Çin kimi möhtəşəm bir ölkə üçün öyünc və şöhrət timsalıdır. Çin xalqı Mo Yanı özünün milli qəhrəmanı sayır.

Dünyanın az qala «altını-üstünü bilən», müdrik Mo Yan yenə də əvvəlki kimi şəhərlə-kənd, siyasətlə-sənət, çinlə-xarici ədəbiyyat, köhnəliklə-müasirliyin arasında özünə «yuva quraraq» yaşayıb-yaratmaqda, çağdaş Çin ədəbiyyatının dünyada ən layiqli örnəyi hesab olunmaqdadır.

Mo Yanın «Çaxırıstan» («Çaxır respublikası») romanından bir parçanı oxucularımıza təqdim edirik.

◆